# Milli Məclisin Sədri Sahibə Qafarova və deputatlar Ulu Öndərin məzarını ziyarət ediblər



Azərbaycan xalqının Milli Qurtuluş Günü ərəfəsində Milli Məclisin Sədri Sahibə Qafarova, Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, parlamentin deputatları və parlament Aparatının məsul əməkdaşları iyunun 14-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyublar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 15 iyun.- S.4.